UOT 338.23

Arzu Böyükağa qızı İBRAHİMLİ-HÜSEYNOVA
Bakı Dövlət Universitetinin müəllimi, i.f.d.
Email: arzushka777@gmail.com
https://doi.org/10.30546/4.71.73001.2025.004.327

AZƏRBAYCANDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİ VƏ ONUN TƏMİN EDİLMƏSİ YOLLARI

Xülasə

Tədqiqatın əsas məqsədi: Bu araşdırmanın əsas hədəfi Azərbaycanda ərzaq təhlükəsizliyi ilə bağlı mövcud problemləri və qarşıya çıxan çağırışları dərindən təhlil edərək, tətbiq olunan normativ-hüquqi mexanizmlərdəki boşluqları aşkarlamaq və onların aradan qaldırılması üçün praktiki tövsiyələr təqdim etməkdir.

Tədqiqat metodologiyası: Araşdırma çərçivəsində təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətləri sistemli şəkildə analiz olunmuş, statistik məlumatlar ümumiləşdirilərək qruplaşdırılmış, funksional və müqayisəli yanaşmalardan, habelə ərzaq təhlükəsizliyinə dair tarixi inkişafın metodoloji aspektlərindən istifadə edilmişdir.

Tətbiqi əhəmiyyət: Tədqiqatın nəticələri milli iqtisadi təhlükəsizliyin ayrılmaz hissəsi olan ərzaq təhlükəsizliyi məsələsinin elmi cəhətdən əsaslandırılmış şəkildə öyrənilməsinə və əhalinin rifah səviyyəsinin artırılmasına töhfə verir.

Əldə edilən nəticələr: Bu elmi iş ərzaq təhlükəsizliyi ilə bağlı aktual problemləri üzə çıxarmaqla yanaşı, həm də ərzaq təchizatına dair dövlət nəzarət mexanizmlərinin effektivliyini qiymətləndirməyə imkan yaradır.

Orijinallıq və elmi yenilik: Tədqiqatın fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, burada yerli aqrobiznes sahələrinə dair nümunə araşdırmaları aparılmış, eləcə də xarici investisiyaların bölgədə ərzaq təhlükəsizliyi standartlarının yüksəldilməsindəki rolu detallı şəkildə təhlil olunmuşdur. Eyni zamanda, Azərbaycanın aqrar ərzaq bazarının təhlükəsizlik istiqamətləri və istehsalın stimullaşdırılması yolları da elmi yenilik olaraq təqdim olunmuşdur.

Açar sözlər: ərzaq təhlükəsizliyi, aqrar sektor, kənd təsərrüfatı siyasəti, xarici investisiya.

Giriş

Ərzaq təhlükəsizliyi uzun illərdir ki, insanların sosial rifahının qorunmasında əsas amillərdən biri kimi çıxış edir. Hazırda bu anlayış həm inkişaf etmiş, həm də inkişafda olan dövlətlər üçün prioritet məsələ olaraq qalmaqdadır. İnkişaf etmiş ölkələrdə bu istiqamətə verilən önəm onların öz ərzaq istehsal imkanlarından səmərəli şəkildə istifadə edərək kompleks təminat sistemləri qurmasına səbəb olmuşdur ki, bu da iqtisadi və milli təhlükəsizliyin möhkəmlənməsində mühüm rol oynayır.

İqtisadi ədəbiyyatda ərzaq təhlükəsizliyi anlayışına müxtəlif yanaşmalar mövcuddur. Bu anlayışlar arasında ərzaq təhlükəsizliyi iqtisadi, təşkilati, texnoloji, sosial və ekoloji faktorların qarşılıqlı təsirindən formalaşan bir sistem kimi qəbul olunur. Əhalinin balanslı və sağlam qidalanma tələbatını ödəmək üçün zəruri ehtiyatların formalaşdırılması və əlavə istehsal imkanlarının yaradılması aqrar sahənin davamlı inkişafı ilə mümkündür. Məsələn, idxal olunan məhsulların həcmi yalnız daxili istehsalla əvəz edilə bilməyən 5-10%-lik hissəni təşkil etməlidir. [1,s. 72; 3, s. 102; 4,s.45]

Digər bir yanaşmaya görə, ərzaq təhlükəsizliyi insanın sosial və iqtisadi potensialını reallaşdırmaq üçün zəruri ilkin şərtdir. Təbii fəlakətlər, müharibələr, iqtisadi sarsıntılar bu təhlükəsizliyi ciddi şəkildə poza bilər.

Qlobal miqyasda da ərzaq təhlükəsizliyi artıq mühüm məsələdir. Dövlətlər və ictimaiyyət əhalinin uzunmüddətli və fasiləsiz şəkildə sağlam qida ilə təmin olunması üçün keyfiyyət standartlarına

əsaslanan kompleks tədbirlər həyata keçirir. Bu sahənin hüquqi bazası isə milli ərzaq müstəqilliyi prinsipinə əsaslanaraq dövlət konstitusiyası ilə müəyyən olunur. Yəni, fövqəladə situasiyalarda belə, dövlət əhalini əsas qida məhsulları ilə təmin etmə imkanına malik olmalıdır. Həmçinin vətəndaşların ərzaq məhsullarına çıxış imkanları fiziki, sosial və iqtisadi baxımdan təmin edilməlidir.

Ölkələrin təbii-coğrafi xüsusiyyətləri və iqtisadi potensialı ərzaq təhlükəsizliyinin təmin olunması yollarını müəyyən edir. Bu təminat aşağıdakı əsas metodlarla həyata keçirilə bilər:

1) Daxili ərzaq məhsulları istehsalı yolu ilə,

2) Xarici bazarlardan idxal vasitəsilə,

3) İstehsal və idxalın kombinasiyası şəklində.

Ərzaq istehsalı ilə idxalı birləşdirə bilən ölkələr adətən inkişaf səviyyəsi yüksək olan və iqtisadi baxımdan güclü dövlətlər sırasındadır.

Milli təhlükəsizlik kontekstində ərzaq təhlükəsizliyi aşağıdakı iki əsas aspekt üzrə dəyərləndirilir:

– Fiziki təminat – yəni əhalinin tələbatına uyğun olaraq qida məhsullarının kifayət qədər mövcudluğu;

– İqtisadi təminat – burada əhalinin alıcılıq qabiliyyəti, sosial-iqtisadi inkişaf səviyyəsi və dövlətin maliyyə dəstəyi əsas rol oynayır.

Ölkənin ərzaq təhlükəsizliyinin effektiv şəkildə təmin olunması regionlarda bu məsələnin lokal səviyyədə təşkilindən asılıdır. Bu çərçivədə diqqət əsasən daxili ərzaq təminatının gücləndirilməsinə və idxalın optimal səviyyədə tənzimlənməsinə yönəlməlidir. Yerli ərzaq təhlükəsizliyi isə regional ticarət infrastrukturunun – daşımaların, saxlama sistemlərinin, emal müəssisələrinin və satış şəbəkələrinin inkişaf səviyyəsindən asılıdır.

Azərbaycanda ərzaq təhlükəsizliyinin cari vəziyyəti və əsas çətinliklər

Azərbaycanın əlverişli təbii-coğrafi mövqeyi müxtəlif növ kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə imkan yaradır. Xüsusi mülkiyyətin tanınması və bazar iqtisadiyyatına keçid isə ölkədə sahibkarlığın inkişafını stimullaşdıraraq ərzaq istehsalının artımına səbəb olmuşdur. Dərin iqtisadi islahatlar nəticəsində müstəqil fəaliyyət göstərən sahibkarlıq subyektlərinin sayında artım müşahidə edilmiş və bu da aqrar sahədə istehsal gücünün artmasına səbəb olmuşdur. [2, s.50; 5, s.110; 7, s.33]

Lakin son illərdə kənd təsərrüfatı və heyvandarlıq məhsullarının, həmçinin onların emal məhsullarının istehsalında azalma tendensiyası müşahidə olunur. Bu isə strateji ərzaq ehtiyatlarının tükənməsinə və qida məhsullarının dəyərinin sürətlə artmasına gətirib çıxarmışdır. Təklifin azalması fonunda qiymətlər sürətlə yüksəlir və nəticədə məhsulların bazara çıxışı məhdudlaşır. Azərbaycanda ərzaq məhsullarının qiymət artımı əsasən məhsul qıtlığı və təklif çatışmazlığı ilə əlaqədar tənzimlənir. Bu səbəbdən, idxal olunan ərzaq məhsulları qiymət sabitliyinə mühüm təsir göstərə bilər.

Son illərdə ərzaq məhsullarının qiymətləri davamlı olaraq yüksəlməkdədir və bu artım əhalinin geniş təbəqələri üçün qida məhsullarını əlçatmaz edir. Xüsusilə pərakəndə satış sektorunda, istisna hallarda şəhər bazarları istisna olmaqla, müşahidə olunan qiymət artımı bəzi məhsullar üzrə 3-5 dəfəyə qədər yüksəlib. Bu dövrdə iqtisadi sektorun bəzi sahələrində əməkhaqqı təqribən 3 dəfə artsa da, kənd təsərrüfatı sahəsində bu artım cəmi 20%, bəzi sənaye sahələrində isə 10-15% civarında qalıb. Əhalinin ümumi gəlirinin təxminən 74,4%-i ərzaq məhsullarına yönəlir ki, bu da ərzaq böhranı şəraitində insanların demək olar ki, bütün maddi resurslarını yalnız qidaya xərcləməsinə səbəb olur.

Ərzaq istehlakı və özünütəminetmə səviyyəsinin dinamikası

Kənd təsərrüfatı məhsullarının azalması, ərzaq istehsalının geriləməsi və qiymət artımları əhalinin düzgün və balanslı qidalanma imkanlarını ciddi şəkildə məhdudlaşdırmışdır. Məlumatlar və statistik cədvəllər göstərir ki, bir çox məhsul növləri üzrə adambaşına istehlak elmi əsaslandırılmış normalardan aşağı səviyyədədir və ildən-ilə bu fərq daha da dərinləşir (Cədvəl 1).

Cədvəl 1.

Azərbaycan əhalisinin əsas ərzaq növlərinin istehlakı (adambaşına, ildə kiloqram)

Əsas məhsul növləri	Rasional istehlak dərəcəsi	İLLƏR				
		2015	2020	2021	2022	2023
Ət və ət məhsulları	33,2	33,9	40,8	41,2	42,1	43,5
Süd və süd məhsulları	270,6	272,1	257,6	253,3	259,3	258,8
Yumurta, ədəd	156	158	175	170	179	189
Dənlilərin (çəltik istisna olmaqla) cəmi		9,9	10,4	8,8	5,6	5,9
Kartof	71,1	74,9	83,3	84,2	91,3	83,9
Tərəvəz və bostan bitkisi	105,5	84,2	172,3	176,4	177,8	175,1
Pomidor		38,4	50,8	59,1	60,4	61,8
Meyvə, giləmeyvə və üzüm	76,7	78	79,1	81,5	83,8	87,9
Balıq və balıq məhsulları	7,0	7,3	7,3	7,4	7,6	8,0
Şəkər	29,2	24,4	26,9	27,3	27,3	27,5
Yağ		3,4	3,6	3,8	4,0	3,9
Çay		2,0	2,3	1,3	1,3	1,3

Mənbə: www.azstat.org

Araşdırmalar göstərir ki, əhalinin istehlak etdiyi ərzaq məhsulları arasında yalnız çörək və kartofun miqdarı elmi əsaslandırılmış standartlara uyğun gəlir. Qalan bütün əsas qida növlərinin istehlakı isə normadan aşağıdır. Bunun nəticəsində pəhrizlərdə enerji dəyəri insan orqanizminin fizioloji ehtiyaclarını ödəməkdən uzaqdır ki, bu da balanslı və tam qidalanmanı qeyri-mümkün edir.

Tarixən Azərbaycan üzüm, tütün, pambıq, meyvə-tərəvəz və konserv məhsulları kimi kənd təsərrüfatı məhsullarını ixrac edən bir ölkə kimi çıxış etmişdir. Bu ixracat nəticəsində ölkəyə həm texniki avadanlıq, həm də xeyli miqdarda xarici valyuta daxil olmuşdur ki, bu da sosial-iqtisadi inkişafda mühüm rol oynamışdır. Bu səbəbdən də, sahibkarlığın inkişaf etdiyi şəraitdə kənd təsərrüfatında diqqət əsasən bu sahələrin dirçəldilməsinə yönəlməlidir. Bunun üçün isə regionların inkişafına dair dövlət proqramları və Strateji Yol Xəritələrində nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi vacib şərtlərdən biri kimi həll edilməlidir.

Təhlillər göstərir ki, 2005-ci illə müqayisədə 2023-cü ildə kənd təsərrüfatı məhsullarının idxal və ixrac strukturu əhəmiyyətli dərəcədə dəyişmişdir. Hazırda ölkənin texniki imkanlarının məhdudluğu səbəbilə Azərbaycan əsasən xammal ixrac edən ölkə kimi çıxış edir (məsələn: pambıq, fermentləşdirilmiş tütün, barama və s.). Bu vəziyyət texnologiya və istehsalat proseslərinin təkmilləşdirilməsinin vacibliyini gündəmə gətirir. Rəqabətədavamlı və beynəlxalq standartlara cavab verən məhsul istehsalı üçün yeni texnologiya və texnikanın tətbiqi elə təşkil olunmalıdır ki, kadrlar problemlərlə qarşılaşmasınlar.

Kənd təsərrüfatı məhsullarının idxaldan asılılığını azaltmaq və ixrac potensialını artırmaq üçün ilk növbədə daxili istehsalın həcmi artırılmalıdır. Bununla yanaşı məhsulların keyfiyyət göstəricilərinə riayət olunmalı, istehsal maya dəyəri aşağı saxlanmalı, daxili bazar qorunmalı, məhsulların daşınma müddətində keyfiyyətinin saxlanılması üçün uyğun qablaşdırma təmin olunmalı və sahibkarlar ixrac prosesinə sərbəst şəkildə qoşula bilməlidirlər. İxracyönümlü məhsulların istehsalının təşviqi sahibkarların maddi vəziyyətinin yaxşılaşdırılmasına, ölkəyə xarici valyuta axınına və bütövlükdə respublikamızın iqtisadi inkişafına təkan verə bilər. Bütün sadalananlarla yanaşı, təbii ki, birinci növbədə daxili istehlak bazarının təmin olunması, əhalinin mövcud tələbatı və istehlak imkanları nəzərə alınmalıdır. Fikrimizcə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılması əsas istiqamətlərdən biri olmalıdır.

Bununla yanaşı, ərzaq bazarında daxili tələbin qarşılanması prioritet olaraq nəzərə alınmalı, əhalinin istehlak imkanları və ehtiyacları diqqət mərkəzində saxlanmalıdır. Bu baxımdan, ixrac

potensialı olan məhsulların istehsalının təşviqi əsas strateji istiqamətlərdən biri olmalıdır.

Hazırkı mərhələdə Azərbaycanın ərzaq bazarında taxıl və onun məhsulları əsasən xarici mənbələrdən asılıdır. Son beş ildə formalaşan taxıl və paxlalı ehtiyatlarının təxminən 30%-i idxal vasitəsilə təmin olunur. Ən əsası isə, gətirilən taxılların demək olar ki, hamısı birbaşa daxili istehlak üçün nəzərdə tutulur.

Kənd təsərrüfatı sahəsində, xüsusilə də heyvandarlıq sektorunda son illərdə qida istehsalının artım tempi nəzərə çarpır. Lakin bununla belə, 2023-cü ildə ölkə əhalisinin heyvandarlıq məhsulları ilə təminolunma səviyyəsində azalma müşahidə olunmuşdur (Cədvəl 2).

Cədvəl 2.

2013-2023-ci illərdə Azərbaycan Respublikasında heyvandarlıq məhsulları ilə özünütəminetmə səviyyəsi, %-lə

	2013	2014	2015	2020	2021	2022	2023
Bütün növ mal-qara və quş əti	92,4	92,4	94,7	84,5	86,4	86,0	85,3
- Mal əti və ət məhsulları	86,3	87,7	91,8	87,4	91,9	93,0	88,4
- Qoyun (keçi) əti və ət məhsulları	97,7	97,9	99,3	97,3	98,2	97,0	94,9
- Donuz əti və ət məhsulları	36,0	16,6	17,8	4,7	4,8	4,6	4,7
- Quş əti və ət məhsulları	98,5	98,0	98,6	79,0	79,6	78,5	82,7
Süd və süd məhsulları	76,0	76,3	84,3	83,5	84,8	83,3	84,0
Yumurta	100,0	99,7	99,7	100,0	99,1	100,5	102,2
Balıq və balıq məhsulları	71,7	72,8	77,6	81,7	78,2	76,7	75,4

Mənbə: *https://www.stat.gov.az/source/agriculture/ Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Beynəlxalq mütəxəssislər qeyd edirlər ki, Azərbaycanda ərzaq təhlükəsizliyi indikatorları əvvəlki illərlə müqayisədə nəzərəçarpacaq dərəcədə yaxşılaşmış və ümumilikdə orta səviyyədə qiymətləndirilmişdir. Son illər ərzində əsas bitkiçilik məhsullarında da daxili təminat və idxaldan asılılıq göstəricilərində əhəmiyyətli dəyişikliklər müşahidə edilmişdir.

Cədvəl 3.

Əsas növ bitkiçilk məhsulları ilə özünütəminetmə səviyyəsi, %-lə

	2013	2014	2015	2020	2021	2022	2023
Dənlilərin cəmi	**63,9**	**60,6**	**64,5**	68,1	73,7	69,0	70,5
buğda	55,9	54,1	54,8	57,1	61,5	56,7	60,4
arpa	97,8	84,6	95,1	94,6	101,9	101,2	95,8
qarğıdalı	60,0	56,7	54,1	86,6	93,6	78,0	79,7
vələmir	89,3	62,2	93,1	86,6	88,5	87,2	81,6
sair növ dənlilər	2,3	1,1	6,3	93,9	26,7	21,7	42,5
Paxlalılar	76,6	76,5	69,3	60,3	56,4	61,5	62,8
Kartof	97,6	89,7	89,1	90,6	88,8	89,0	89,8
Bütün növ tərəvəz	102,3	103,4	103,4	110,4	106,6	106,8	107,2
Pomidor	109,3	112,1	113,7	131,0	121,1	119,8	118,9
Bostan məhsulları	100,0	100,4	100,0	100,8	102,6	103,2	103,2
Meyvə və giləmeyvə	121,8	120,1	113,7	116,3	122,9	123,9	135,5
Qoz və fındıq	134,9	151,4	132,5	138,0	136,5	137,0	139,7
Nar	104,7	103,5	103,7	112,0	127,8	125,9	132,8
Üzüm	94,8	97,9	93,1	95,8	94,4	94,8	93,9

Mənbə: *https://www.stat.gov.az/source/agriculture/ Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Statistik məlumatlara əsasən, bütün növ tərəvəz məhsulları üzrə özünütəminetmə səviyyəsi 2015-ci ildə 115,4%, 2020-ci ildə 110,4%, 2023-cü ildə isə 107,2% təşkil etmişdir. Bu göstəricilər 2015-ci illə müqayisədə 2023-cü ildə 8,2% azalma olduğunu göstərir. Meyvə və giləmeyvə məhsulları üzrə bu səviyyə 2015-ci ildə 113,7%, 2020-ci ildə 116,3% və 2023-cü ildə 135,5% təşkil etmiş, nəticədə 21,8%-lik artım müşahidə olunmuşdur. Üzüm istehsalında isə yalnız 0,8% artım qeydə alınmışdır. Beləliklə, müxtəlif məhsulların özünütəminetmə səviyyəsində artım və azalma müşahidə olunduğunu söyləmək olar. Digər tərəfdən, idxaldan asılılıq səviyyəsi müəyyənləşdirilməlidir.

Əldə olunan nəticələrə əsasən, kənd təsərrüfatı məhsullarının əksəriyyəti ya tam, ya da qismən emal olunmadan xammal formasında xarici bazarlara, xüsusilə Rusiyaya ixrac olunur. Bu isə məhsul dəyərinin artmasına mane olur. Halbuki, müasir texnologiyalar vasitəsilə bu məhsulların daxildə emal edilib hazır məhsul kimi ixracı həm iqtisadi, həm də sosial baxımdan daha faydalı olardı. Hazırda bir çox konserv, şərab və çay istehsalı müəssisələrinin modernləşdirilməyə ciddi ehtiyacı var.

Sözügedən məhsulların daxildə tam emalı və hazır məhsul formasında bazara çıxarılması mənfəətin dəfələrlə artmasına şərait yaradar. Bundan əlavə, bu istiqamətdəki investisiya yatırımları minlərlə yeni iş yerinin yaradılmasına imkan verə bilər.

Müasir bazar iqtisadiyyatı şəraitində ixrac yönümlü istehsalın təşviqi üçün ölkədə dayanıqlı iqtisadi inkişaf təmin olunmalı, səmərəli istifadə olunmamış istehsal resursları dövriyyəyə cəlb edilməli və məhsul çeşidi, keyfiyyəti, habelə infrastruktur inkişaf etdirilməlidir.

Kənd təsərrüfatının inkişaf istiqamətləri və dövlət siyasətinin rolu

Kənd təsərrüfatı siyasətinin strateji məqsədi əhalinin ərzaq məhsullarına olan tələbatını maksimum səviyyədə yerli istehsal hesabına qarşılamaqdan ibarətdir. Əsas prioritetlərdən biri ərzaq qıtlığının aradan qaldırılması, məhsul keyfiyyətinin yüksəldilməsi və çeşidinin artırılmasıdır.

Dövlətin aqrar siyasətində əsas vəzifələrdən biri səmərəli istehsal strukturunun formalaşdırılması və əhalinin ərzaq və xammalla təminat səviyyəsinin artırılması üçün müvafiq sosial-iqtisadi mexanizmlərin tətbiqidir. Bu isə iqtisadi transformasiya tələb edir.

Hazırda ölkədə kənd təsərrüfatı məhsuldarlığı arzuolunan səviyyədə deyil. İstehsalın həcminin artırılması ilə yanaşı, məhsulların keyfiyyət göstəricilərinin yaxşılaşdırılması da ön planda olmalıdır. İdxaldan asılılıq bəzi qida məhsulları üzrə yüksəkdir və bu vəziyyət ərzaq təhlükəsizliyinin təmin olunması üçün kompleks tədbirlərin görülməsini zəruri edir.

Əsas tədbirlərə aşağıdakılar daxildir:

- Aqrar sektorun dayanıqlı inkişafının təşviqi;
- Dövlət və regional səviyyədə maliyyə fondlarının yaradılması;
- Aqrar-sənaye komplekslərinin gücləndirilməsi;
- İxrac və idxal balansının tənzimlənməsi üçün valyuta ehtiyatlarının formalaşdırılması.

Bu strategiyaların uğurla həyata keçirilməsi üçün ölkənin siyasi, iqtisadi və ekoloji reallıqları nəzərə alınmalıdır.

Ərzaq təhlükəsizliyinin təmin olunması mərhələli yanaşma tələb edir. İlk mərhələdə istehsal azalmalarının qarşısı alınmalı, istehsalçılar texnika, gübrə və toxumla təmin olunmalıdır. Paralel olaraq normativ-hüquqi baza təkmilləşdirilməli və bütün mülkiyyət formalarında fəaliyyət göstərən müəssisələr üçün eyni şərait yaradılmalıdır [6, s.88].

İkinci mərhələdə isə kənd təsərrüfatında sabitlik təmin olunmalıdır. Bu məqsədlə inzibati idarəetmənin yerini bazar yönümlü təsərrüfat idarəçiliyi tutmalı, infrastruktur yenilənməli və idarəetmə mexanizmləri optimallaşdırılmalıdır.

Üçüncü mərhələ yeni texnologiyaların tətbiqi ilə istehsalın artırılmasını nəzərdə tutur. Bu mərhələdə həm daxili tələbin ödənilməsi, həm də xarici iqtisadi əlaqələrin gücləndirilməsi əsas hədəf olmalıdır.

Aqrar sektorun maliyyələşdirilməsi və investisiya siyasətinin gücləndirilməsi

Bu prosesin uğurlu icrası üçün investisiya mühitinin optimallaşdırılması vacibdir. Aqrar

sektorda struktur islahatlarının dərinləşdirilməsi, yoxsulluğun azaldılması və iqtisadiyyatın şaxələndirilməsi üçün sosial proqramlar həyata keçirilməlidir.

İnvestisiya infrastrukturu baxımından banklar, sığorta qurumları və fond bazarlarının inkişafı vacib rol oynayır. Dövlət tərəfindən investor dəstəyi – vergi güzəştləri, faiz endirimləri və zəmanətlər vasitəsilə təmin edilməlidir.

Aqrar sahəyə yatırımlar üçün əsas təşviqedici tədbirlər bunlardır:

– Hüquqi sahədə islahatlar və yeni qanunların qəbulu;
– Vergi yükünün azaldılması və güzəştlərin tətbiqi;
– Dövlət zəmanətlərinin təmin olunması;
– İdarəetmədə şəffaflığın artırılması və bürokratiyanın azaldılması;
– Sabit bazar mühitinin yaradılması.

Həm xarici, həm də yerli investorların bərabər imkanlara malik olması təmin edilməlidir.

İnvestisiyalar aşağıdakı istiqamətlərdə cəmlənməlidir: ümumi iqtisadi mühitin yaxşılaşdırılması, iqtisadi sabitliyin təmin edilməsi, hüquqi çərçivənin təkmilləşdirilməsi və real sektorla maliyyə bazarları arasında effektiv əlaqələrin qurulması.

Azərbaycanın aqrar sektoru, xüsusilə də qeyri-neft iqtisadiyyatı xarici investorlar üçün daha cəlbedici hala gətirilməlidir. Əldə olunan neft gəlirlərinin və xarici sərmayələrin kənd təsərrüfatı və digər qeyri-neft sahələrinə yönləndirilməsi əsas hədəf olmalıdır.

Müasir texnologiyalar və innovativ yanaşmalar sayəsində Azərbaycan ərzaq məhsulları sahəsində yüksək keyfiyyətli və rəqabətədavamlı istehsal imkanlarını genişləndirir. Bu strategiya ölkənin qida bazarındakı mövqeyini gücləndirərək beynəlxalq bazarlarda tələbatı artırır.

2024-cü il etibarilə Azərbaycan ərzaq emalı bazarının dəyəri təxminən 2,6 milyard ABŞ dolları təşkil edir və 2030-cu ilə qədər bu rəqəmin 3,9 milyard dollara çatacağı proqnozlaşdırılır. Qida və içki sektoru bu bazarın əsas komponentlərindəndir.

Texnoloji yeniliklər, artan daxili tələbat və ixrac imkanları bazarın inkişaf perspektivlərini daha da möhkəmləndirir. Dövlət proqramları çərçivəsində logistika, xüsusilə soyuq zəncir sistemlərinin təkmilləşdirilməsi və emal güclərinin artırılması istiqamətində fəaliyyətlər davam etdirilir [5].

İnvestisiya siyasətinin effektivliyinin təmin olunması üçün hüquqi və inzibati islahatların da aparılması zəruridir. Qanunvericilikdə müvafiq dəyişikliklər, bürokratik əngəllərin aradan qaldırılması və dövlət idarəetməsinin çevikliyi investorların maraqlarını qorumaqla bərabər, sektorun dinamik inkişafını təşviq edə bilər. Bu tədbirlər həm yerli, həm də xarici investorlar üçün bərabər və şəffaf biznes mühiti yaratmağa xidmət etməlidir.

Nəticə

Azərbaycanın ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı sektoru əsas aparıcı qüvvə kimi çıxış edir. Bununla belə, sektorun inkişafı qarşısında duran texnoloji gerilik, aşağı məhsuldarlıq, qeyri-kafi investisiya və müasir idarəetmə mexanizmlərinin çatışmazlığı kimi problemlər ərzaq təminatında dayanıqlılığa mənfi təsir göstərməkdədir. Hökumət tərəfindən həyata keçirilən subsidiyalar, güzəştli kreditlər və institusional dəstək tədbirləri əhəmiyyətli olsa da, mövcud zəifliklərin tam aradan qaldırılması üçün daha kompleks və məqsədyönlü strategiyalara ehtiyac vardır.

Kənd təsərrüfatına xarici investisiyaların cəlb edilməsi, sektorun texnoloji modernləşdirilməsi və qlobal bazar tələblərinə uyğun məhsul istehsalının genişləndirilməsi baxımından mühüm imkanlar yarada bilər. Bu isə yalnız kapital qoyuluşu ilə deyil, həm də qabaqcıl təcrübənin və idarəetmə modellərinin ölkəyə transferi ilə müşayiət olunmalıdır.

Ərzaq təhlükəsizliyinin təminatı baxımından məhsul müxtəlifliyinin artırılması və idxaldan asılılığın azaldılması da prioritet istiqamətlərdəndir. Xüsusilə iqlim dəyişikliklərinin kənd təsərrüfatı məhsuldarlığına təsiri nəzərə alınaraq, davamlı və adaptiv istehsal texnologiyalarının tətbiqi zəruri hesab olunur. Eyni zamanda, ərzaq tədarük zəncirindəki çatışmazlıqlar – daşınma, saxlama və paylama sistemlərinin səmərəsizliyi – məhsul itkisinə və qiymət artımına səbəb olur ki, bu da

logistika infrastrukturunun təkmilləşdirilməsini zəruri edir.

Qida təhlükəsizliyinin effektiv idarə olunması üçün dövlət orqanlarının funksional və məsuliyyət bölgüsü aydın şəkildə müəyyən olunmalı, nəzarət və tənzimləmə mexanizmləri gücləndirilməlidir. Hüquqi-normativ baza beynəlxalq standartlara uyğunlaşdırılmalı, qida məhsullarının keyfiyyətinə nəzarət sistemi müasir texnoloji imkanlarla təchiz edilməlidir.

Təkliflər

1. Aqrar sektorun texniki və texnoloji modernləşdirilməsi üçün hədəfli investisiya təşviq mexanizmləri hazırlanmalıdır.
2. Yerli və xarici investorlar üçün bərabər hüquqlu və şəffaf investisiya mühiti formalaşdırılmalıdır.
3. Ərzaq məhsullarının emal müəssisələrinin yenilənməsi və keyfiyyətli hazır məhsul istehsalına keçid dəstəklənməlidir.
4. Kənd təsərrüfatı məhsullarının sığortalanması və maliyyələşdirilməsi mexanizmləri təkmilləşdirilməlidir.
5. Logistika və saxlama infrastrukturunun inkişafı ilə məhsul itkiləri və bazardakı qiymət dalğalanmaları azaldılmalıdır.
6. İqlim dəyişikliklərinə adaptasiya məqsədilə davamlı kənd təsərrüfatı praktikasına keçid təşviq edilməlidir.

Bu təkliflərin icrası Azərbaycanın ərzaq təhlükəsizliyinin dayanıqlı şəkildə təmin olunmasına, kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılmasına və əhalinin sosial rifahının yüksəldilməsinə xidmət edə bilər.

ƏDƏBİYYAT

1. Abbasov A. F. İqtisadi inkişafın müasir meylləri: qlobal çağırışlar, təhdidlər və perspektivlər (Monoqrafiya). Bakı, "Müəllim" nəşriyyatı. – 2024, 576 s.
2. Ataşov B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Bakı, 2017, "Kooperasiya" nəşriyyatı, 536 səh.
3. Багиров, М. С. Развитие аграрного сектора и применение принципов маркетинга (Монография). Кейра Пресс. 2014. – С. 102-106.
4. Браун, Л. Эволюция глобальной продовольственной перспективы: 1990-е годы и далее. Вашингтон. 1988. – С. 45-47.
5. Гулиев, Э. А. Экономика сельского хозяйства. Баку. 2015. – С. 110-113.
6. Рустамов А.А., Гасымов Д.К. Экономика и управление аграрной сферой. Баку: Издательство «Аврора». 2013. – С. 88-90.
7. Чисхолм А. и Тайерс Р. Продовольственная безопасность: теория, политика и перспективы в Азиатско-Тихоокеанском регионе. 1982. – С. 33-37.

Арзу Боюкага кызы Ибрагимли Гусейнова
Преподаватель Бакинского Государственного Университета,
доктор философии.
Электронная почта: arzushka777@gmail.com

Безопасность пищевых продуктов в Азербайджане и способы его предоставления

Резюме

Основная цель исследования: Основной целью данного исследования является проведение глубокого анализа текущих проблем и вызовов, связанных с продовольственной безопасностью в Азербайджане, выявление пробелов в применяемых нормативно-правовых механизмах и предоставление практических рекомендаций по их устранению.

Методология исследования: В рамках исследования проведен системный анализ

экономической деятельности хозяйствующих субъектов, обобщение и группировка статистических данных, использованы функциональный и сравнительный подходы, а также методологические аспекты исторического развития в части продовольственной безопасности.

Прикладная значимость: Результаты исследования способствуют научно обоснованному изучению проблемы продовольственной безопасности, являющейся неотъемлемой частью национальной экономической безопасности, и повышению уровня благосостояния населения.

Результаты: Данная научная работа не только раскрывает современные проблемы, связанные с продовольственной безопасностью, но и позволяет оценить эффективность механизмов государственного контроля за продовольственным обеспечением.

Оригинальность и научная новизна: Отличительной особенностью исследования является то, что оно включает в себя тематические исследования местных секторов агробизнеса, а также подробный анализ роли иностранных инвестиций в повышении стандартов безопасности пищевых продуктов в регионе. При этом направления безопасности азербайджанского агропродовольственного рынка и пути стимулирования производства также были представлены в качестве научных инноваций.

Ключевые слова: продовольственная безопасность, аграрный сектор, аграрная политика, иностранные инвестиции.

Arzu Boyukagha Ibrahimli Huseynova
Teacher of Baku State University, i.f.d.
Email: arzushka777@gmail.com

Food security in Azerbaijan and ways to provide it

Summary

The main objective of the study: The main objective of this study is to deeply analyze the existing problems and challenges related to food security in Azerbaijan, identify gaps in the applied regulatory and legal mechanisms and provide practical recommendations for their elimination.

Research methodology: Within the framework of the study, the economic activities of economic entities were systematically analyzed, statistical data were summarized and grouped, functional and comparative approaches, as well as methodological aspects of the historical development of food security were used.

Applied significance: The results of the study contribute to the scientifically substantiated study of the issue of food security, which is an integral part of national economic security, and to increasing the level of well-being of the population.

Results: This scientific work, in addition to revealing current problems related to food security, also allows us to assess the effectiveness of state control mechanisms for food supply.

Originality and scientific innovation: The distinctive feature of the study is that case studies of local agribusiness sectors were conducted here, as well as the role of foreign investments in improving food security standards in the region was analyzed in detail. At the same time, the security directions of the agrarian food market of Azerbaijan and ways to stimulate production were also presented as a scientific innovation.

Keywords: food security, agrarian sector, agricultural policy, foreign investment.